

## Əhməd Mayis oğlu Salmanov – 60 il!

SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunun geologiya və yataqların işlənməsi üzrə direktor müavini, geologiya-mineralogiya elmləri doktoru, Əhməd Mayis oğlu Salmanovun 2021-ci il iyun ayının 3-də 60 yaşı tamam olur.

Salmanov Əhməd Mayis oğlu 1961-ci ildə Bakı şəhərində ziyalı ailəsində anadan olmuşdur. 1979-cu ildə Azərbaycan Neft və Kimya İnstitutuna (indiki Azərbaycan Dövlət Neft və Sənaye Universitetinə) daxil olmuş, 1984-cü ildə həmin institutun geoloji kəşfiyyat fakültəsini fərqlənmə diplomu ilə bitirmişdir. Əmək fəaliyyətinə Azərbaycan SSR EA-nın Dərin Neft və Qaz Yataqlarının Problemləri İnstitutunda başlamışdır.

1991-ci ildə "Yataqların işlənməsinin son mərhələsində neft hasilatı dinamikasının geoloji-riyazi modelləşdirilməsi və layların neftveriminin artırılması üsullarının tətbiqinin effektivliyinin qiymətləndirilməsi" mövzusu üzrə namizədlik dissertasiyası müdafiə edərək texnika elmləri namizədi alimlik dərəcəsi almışdır.

1992-ci ildə Azərbaycan Dövlət Neft Akademiyasına müsabiqə yolu ilə işə götürülmüş və 2007-ci ilin may ayınadək "Neft-qaz mədən geologiyası" kafedrasında dosent vəzifəsində çalışmışdır. 1998-ci ildə Azərbaycan Prezidenti yanında AAK tərəfindən dosent elmi adına layiq görülmüş, 2007-ci ilin may ayından 2009-cu ilin iyul ayınadək Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin Elmi Tədqiqatlar İnstitutunda direktorun elmi işlər üzrə müavini vəzifəsində çalışmışdır. 2009-cu ildə "Neft yataqlarının səmərəli mənimsənilməsi yollarının geoloji-riyazi modellə əsaslandırılması" mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş və geologiya-mineralogiya elmləri doktoru alimlik dərəcəsi almışdır. 2009-cu ildən SOCAR-ın "Neftqazelmitədqiqatlayihə" İnstitutunda geologiya və yataqların işlənməsi üzrə direktorun müavini vəzifəsində çalışır. 2011-ci ilin sentyabr ayında "Tərəqqi" medalına layiq görülmüşdür.

Neft yataqlarının səmərəli mənimsənilməsi, işlənmənin son mərhələsində neft hasilatı dinamikasının proqnozu, geoloji-riyazi modelləşdirmə, layların neftveriminin artırılması üsulları Ə.M. Salmanovun məşğul olduğu əsas elmi istiqamətlərdir. O, 117 elmi məqalə, 4 monoqrafiya, 8 dərs vəsaiti və metodik göstərişlər, 1 xəritənin müəllifidir.

Ə.M. Salmanov 2012-ci ildə "Azərbaycan Neftçi Geoloqlar Cəmiyyəti"nin prezidenti, 2013-cü ilin mart ayından isə Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının eksperti seçilmişdir. 2007-ci ildən "Neft-qaz yataqlarının geologiyası, geofizikası, axtarışı və kəşfiyyatı" elmi-texniki şura bölməsinin sədri, 2014-cü ildən "Azneft" İB-də "Axtarış-kəşfiyyat, neft və qaz ehtiyatları, neft və qaz yataqlarının işlənməsi üzrə daimi fəaliyyət göstərən komissiya"nın üzvüdür.

**Hörmətli Əhməd müəllim!**

Sizi yubileyiniz münasibətilə səmimi qəlbdən təbrik edir, möhkəm cansağlığı, uzun ömür, xoşbəxtlik, şəxsi həyatınızda və elmi fəaliyyətinizdə yeni-yeni uğurlar arzulayırıq.

"Neftqazelmitədqiqatlayihə" İnstitutunun
kollektivi adından institutun direktoru
**Fəxrəddin İsmayılov**